# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# TERAPEVTİK STOMATOLOGİYA KAFEDRASININ İNKİŞAF STRATEGİYASI

# KAFEDRANIN İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

1. Kafedrada tədris edilən fənlər üzrə tədris-metodiki işin yüksək elmi səviyyədə təşkili və aparılması.
2. Kafedranın profili və elmi proqramlar üzrə  elmi tədqiqatların həyata keçirilməsi.-.
3. Elmi-pedaqoji və elmi kadrların hazırlanması.
4. Terapevtik stomatologiyada  Restovrativ stomatologiya, Endodontiya, Parodontologiya və Ağız boşluğu selikli qişa xəstəlikləri üzrə praktiki və klinik bacarıqların formalaşdırılması.
5. Rezidentura pilləsində təhsil alan həkim-rezidentlərin hazırlığı.
6. Doktorantura pilləsində təhsil alan doktarantların hazırlığı.

# TƏDRİS-METODİKİ İŞLƏR ÜZRƏ

1. Müasir səviyyədə bilik, bacarıq və səriştələrə malik məzunların hazırlanmasının təmin edilməsi məqsədilə tədrisin müasir standartlara uyğun təşkili, tələbələrin nəzəri biliklərinin və praktiki vərdişlərinin daha da artırılması;
2. Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin təcrübəsinə əsaslanaraq standartlara uyğun təhsil proqramlarının və səriştələrə nəzarət sistemlərinin hazırlanması;
3. Yeni elektron tədris materiallarının hazırlanması və hazır materialların elmi yeniliklərə uyğun olaraq yenilənməsi;
4. Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin istifadə etdikləri tədris və tədris-metodiki ədəbiyyata uyğun olaraq həm bakalavr, həm magistratura pilləsində tədris olunan fənlərə uyğun azərbaycan və ingilis dillərində ədəbiyyatların (dərslik, dərs vəsaiti, metodik vəsait) hazırlanması və nəşri;
5. Digər universitetlərin və elmi-tədqiqat institutlarının müvafiq kafedraları **ilə** yaradıcılıq əlaqələrinin inkişafı;

# TƏDRİS-METODİK İŞLƏR ÜZRƏ

6. Kafedranın professor-müəllim heyətinin təlim bacarıqlarının müasir təlim texnologiyalarına müvafiq olaraq təkmilləşdirilməsi;
7. Kafedranın professor-müəllim heyətinin müasir tələblərə uyğun dil (xüsusilə ingilis dili) bacarıqlarının artırılması;
8.Kafedraya müasir tələblərə cavab verən və dil bacarığına malik gənc müəllim kadrlarının cəlb olunması;
9. Tələbələrin praktik vərdişləri daha yaxşı mənimsəməsi üçün qabaqcıl ali təhsil müəssisələrinin istifadə etdiyi müasir təlim üsullarının araşdırılması və istifadəsi;
10. Tədris prosesində kompüter texnologiyalarından istifadənin təkmilləşdirilməsi;
11. Kafedrada tədrisə uyğun ədəbiyyatla təhciz olunmuş kitabxananın yaradılması;

# TƏDRİS-METODİK İŞLƏR ÜZRƏ

12. Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün istifadə edilən sorğu materiallarının təkmilləşdirilməsi;

13.Kafedrada tədris prosesində problem əsaslı öyrədilmə üsullarının istifadə edilməsi;

14. Tələbələrin ixtisas üzrə bacarıqların artırılması üçün Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və digər aidiyyatlı qurumlarla əməkdaşlığın qurulması;

15. Rezident və magistr tələbələrin hazırlığı istiqamətində elmi araşdırmaların onların profilinə uyğun istiqamətdə seçilməsi və elmi araşdırmaların mövzusunun müasir tələblərə cavab verməsi;

16. Kafedrada tələbələrin milli ruhda formalaşması, vətənpərvər olması istiqamətində işlərin həyata keçirilməsi.

# KAFEDRANIN ELMİ-TƏDQİQAT İŞİ SAHƏSİNDƏ

1. Yeni prioritet istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi;
2. Beynəlxalq qrant layihələrinə (Horizon, COST və s.) qoşulmaq üçün Avropa və Asiyanın qabaqcıl tibb və digər müvafiq ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əlaqələrin qurulması;
3. Kafedra əməkdaşlarının elmi işlərinin Beynəlxalq indeksləşdirilmiş elmi mətbuatda nəşri; Beynəlxalq və Milli elmi tədbirlərdə sözlü və poster iştirakının artırılması; müxtəlif ixtisasartırma kurslarında iştirakının təmin edilməsi;
4. Respublika üzrə qrant layihələrinə qoşulmaq üçün kafedranın elmi potensialının səfərbər edilməsi;
5. Yeni prioritet istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi.

# MADDİ-TEXNİKİ BAZANIN YAXŞILAŞDIRILMASI

1. Kafedranın səlahiyyətində olan dərs otaqlarının və mühazirə zallarının yüksək keyfiyyətli işlək vəziyyətdə saxlanılması;
2. Tədris prosesində və elmi tədqiqatlarda istifadə olunan mənəvi və fiziki cəhətdən köhnəlmiş cihaz və qurğuların dəyişdirilməsi, yeni alət və qurğuların alınması;
3. Tədris prosesinin dəstəklənməsi və elmi tədqiqatların aparılması üçün lisenziyalı yeni proqram məhsullarının yenilənməsi;
4. Kafedrada kompüter texnologiyalarının təkmilləşdirilməsi və artırılması;
5. Tədris prosesində erqonomik texnologiyalardan daha geniş istifadə edilməsi;
6. Tələbələrin tədrisi üçün optimal gigiyenik şəraitin yaradılması, profilaktik sağlamlıq tədbirlərinin həyata keçirilməsi;
7. Kafedrada tədrisə uyğun kitabxananın yaradılması.